# Məhəmməd Əmin Rəsulzadənin bir fotoşəkli...

1919-cu ildə "Azərbaycan" qəzetinin redaksiyasında çəkilən ikinci şəkildə dövrün məşhur şəxsləri də yer alıb: Şəfi bəy Rüstəmbəyli, Üzeyir bəy Hacıbəyli, Mustafa ağa Vəkilov, Məhəmməd Hadi, Şəfiqə xanım Əfəndizadə və başqaları.

Üçüncü foto 1922-ci ildə Finlandiyada ikən çəkilib. Bu şəkildə onun yanında tatar mücahidləri olan Abdullah Battal Taymas və Lütfi İshaqi var.

Dördüncü fotoşəkil 1927-ci ildə İstanbulda 28 May bayramı münasibətilə bir çox mühacir siyasətçi və onların ailələri ilə birgə lentə alınıb. Şəkildəkilər Xəlil bəy Xasməmmədov və xanımı, Şəfi bəy Rüstəmbəyli, Mustafa ağa Vəkiloğlu, Məhəmmədsadıq Aran, Şəfiqə Qaspıralı və digərləridir. Bu tədbir Azəri-Türk Gənclər Birliyi tərəfindən Cümhuriyyətin elanının 9-cu ildönümü münasibəti ilədir.

Beşinci foto Cümhuriyyətin 10-cu ildönümü münasibətilə 1928-ci ilə aiddir. Bu şəkildə ən yaxın dostları Mirzəbala Məhəmmədzadə, Abbasqulu Kazımzadə və digər gənc azərbaycanlılar təsvir olunublar.

Altıncı fotoşəkil böyük ehtimalla Avropada əbədiləşib. Bir dəniz sahilində çimərlik geyimində olan şəklin arxasında Rəsulzadə imzası ilə birgə belə qeyd də verib: "Kardeşim Mehmet Aliye. 28.08.1929"

Nəhayət, Rəsulzadənin arxivimizdəki xeyli maraq doğuran tək fotoşəkli isə Avropada mühacir həyatı yaşayarkən çəkilib. Kiçik ölçüdə olan bu şəkli digərləri ilə birlikdə İstanbuldan əldə etmişəm. Həmin fotoşəkil böyük ehtimalla hansısa vəsiqə və ya dərgi üçündür. Ola bilsin ki, bu şəklin daha böyük ölçülü forması olub, bəlkə də, xatirə məqsədlidir. Çünki Rəsulzadənin müxtəlif illərdə yaxın dostlarına imzalayıb hədiyyə etdiyi bir neçə şəkil məlumdur. Məsələn, 1935-ci ildə Parisdə çəkdirdiyi bir şəklini imzalayıb Kərim Odərə hədiyyə edib. Hazırda həmin şəkil professor Yavuz Akpınarın arxivindədir.

Rəsulzadə 1930-cu ildən etibarən Avropada yaşayıb. 1947-ci ildə yenidən Türkiyəyə qayıdanadək Rumıniya, Polşa, Almaniya kimi dövlətlərdə istiqlal mübarizəsini davam etdirib. Bu illərdə ailəsinin sürgünə göndərilməsi, böyük ehtimalla oğlunun öldürülməsi xəbərini eşidib. Ona görə də qürbət şəkillərində üzündə daimi nisgil var. Təqdim etdiyimiz tək fotoşəkildə bu daha qabarıq olaraq özünü göstərdiyindən insanlar sevgi ilə yanaşı, bir doğmalıq hissilə də bu şəkli bəyəndilər.

Şəkli ilk dəfə 2015-ci ildə nəşr olunan "Fərqlilər" adlı kitabımda nəşr etsəm də, qrafik dizayner Rəsul Həsənin ona yenidən can verməsi – rəngli təqdimatı daha böyük maraq doğurdu. Sosial şəbəkələrdə minlərlə insan tərəfindən paylaşıldı. Bu da Cümhuriyyətin qurucusuna olan sevginin bir nümunəsi idi. ◆



**Dilqəm ƏHMƏD**

04